# Azərbaycanı "yaşıl enerji" sahəsində də etibarlı tərəfdaş adlandıran Ursula fon der Lyayen COP29-a niyə gəlmir

## Sözsüz ki, planeti ən çox çirkləndirən Aİ məsuliyyətdən yayınmaq istəyir

**Avropa Komissiyasının sədri Ursula fon der Lyayen COP29-a qatılmayacağını bəyan edib. Qəribədir. Çünki o, təxminən iki il yarım bundan əvvəl Bakıya gəlişindən çox razı qalmışdı. Əvvələ səmimi qəbul edildiyindən məmnun olduğunu bildirmişdi. Söyləmişdi ki, Avropa İttifaqı qaz üçün etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəlib və o, xanım Lyayen Azərbaycanı həmin tərəfdaşların sırasında hesab edir.**




"Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz." Bu sözləri o, 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandıqdan sonra mətbuata bəyanatında demişdi. Anlaşma memorandumunun üç məqamını vurğulamışdı: "Birincisi, biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur".

İkinci mühüm məqam isə məhz bərpaolunan enerji ilə bağlı idi. Ursula fon der Lyayen Azərbaycanın bu sahədə nəhəng potensiala malik olduğunu vurğulamışdı və demişdi: "Biz həmin sahədə əməkdaşlığımızın möhkəm təməlini qoyuruq. Azərbaycan yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərini təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcək." Həmçinin qeyd etmişdi ki, qaz sahəsindəki əməkdaşlığımız iqlimlə bağlı məsuliyyətimizlə uzlaşmalıdır. Buraya metan qazının tullantıları da daxildir və imzalanan memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəlik nəzərdə tutur: "Mən Azərbaycanı qlobal metan öhdəliyinə qoşulmağa dəvət edirəm. Bu günə qədər bu öhdəlik 119 ölkə tərəfindən dəstəklənib. Azərbaycan böyük tərəqqiyə nail olub, nümayiş və təqdim etməyə bir çox nailiyyəti var".

Azərbaycanın enerji keçidindəki potensialını və nailiyyətlərini qeyd edən, metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəliklərini dəstəkləyən Ursula fon der Lyayen nə baş verdi ki, indi Bakının evsahibliyi etdiyi COP29-a qatılmayacağını bildirir.

Məsələ aydındır. Deməli, bu mötəbər tədbirdə müzakirə olunacaq problemlər onu narahat etmir. Təkcə onu yox, həm də rəhbərlik etdiyi qurumu. İqlim dəyişikliyi kimi bütün bəşəriyyətə fəlakət gətirə biləcək bir məsələyə qarşı laqeyddirlər. Beynəlxalq ictimai rəy, o cümlədən COP29 keçirilən zaman söyləniləcək fikirlər, ediləcək təkliflər onları əsla maraqlandırmır.

Planeti ən çox çirkləndirən isə Avropa İttifaqıdır. Təbii ki, dünya ondan yeni iqlim maliyyəsi gözləyir. Aİ isə COP-a gəlmir. Səbəb aydındır. Aİ faktiki olaraq yayınmaq, yəni məsuliyyətdən qaçmaq istəyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 7 noyabr (№ 246).- S.14.